SÜRƏYYA AĞAOĞLU

# BİR ÖMÜR BELƏ KEÇDİ

•

## SƏSSİZ GƏMİNİ GÖZLƏRKƏN

qanun nəşriyyatı

**Sürəyya Ağaoğlu**
**BİR ÖMÜR BELƏ KEÇDİ.**
**SƏSSİZ GƏMİNİ GÖZLƏRKƏN**
Bakı, Qanun Nəşriyyatı, 2023, 400 səh.

Janr: non-fiction/xatirə
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 26.10.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Türkcədən uyğunlaşdıran, müqəddimə və şərhlərin müəllifi: | Vilayət Quliyev |
| Sözardının müəllifi: | Nigar Axundova |
| Korrektor: | Nigar Abdullayeva |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-840-4

© Qanun Nəşriyyatı, 2023
© Sürəyya Ağaoğlu, 2023

**TÜRKİYƏ CÜMHURİYYƏTİ**
**QURULMASININ**

**100**
**illiyinə**

**SÜRƏYYA AĞAOĞLUNUN**
**ANADAN OLMASININ**

**120**
**illiyinə**

**İTHAF OLUNUR**

Türkiyənin ilk qadın vəkili, beynəlxalq qadın hərəkatının görkəmli nümayəndələrindən biri kimi tanınan soydaşımız Sürəyya Ağaoğlunun (Şuşa, 1903 – İstanbul, 1989) xatirələrində müəllifin maraqlı həyat tarixçəsi, mənsub olduğu Ağaoğlu ailəsinin Türkiyə qarşısındakı xidmətləri, habelə qadın azadlığı baxımından qardaş ölkənin XX yüzillikdə keçdiyi böyük inkişaf yolu haqqında söz açılır. Kitabda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk və onun Ağaoğlu ailəsi ilə yaxın münasibətləri barəsindəki epizodlar xüsusi maraq doğurur. Xatirələr qardaş Türkiyənin 100 ildə keçdiyi inkişaf yolunu əsas hadisələri və şəxsiyyətləri ilə izləmək baxımından da maraq doğurur.

*Sevimli ailəmə*

# KİTABIN İÇİNDƏKİLƏR

**Vilayət Quliyev.** Bir ömrün tarixə işıq salan səhifələri.......10

**Bir ömür belə keçdi**

Başlarkən............................................................... 27
Ailəm və təhsil illərim ...................................................... 28
Peşə həyatım və sosial fəaliyyətim .................................... 71
27 may və sonrası............................................................. 217
Səməd Ağaoğlunun Anayasanı pozmaq ittihamı ilə
bağlı müdafiə nitqindən parçalar ...................................... 239
Mənim müdafiə nitqimdən parçalar................................... 246
Bitirərkən ........................................................................ 289

**Səssiz gəmini gözlərkən**

Giriş.................................................................................. 293
Xatirələrin davamı ............................................................ 298
Hüquq............................................................................... 373
Partiyaçılıq ...................................................................... 379
Əndərun............................................................................ 383
**Nigar Axundova.** Zəruri sözardı. .................................... 385

## BİR ÖMRÜN TARİXƏ İŞIQ SALAN SƏHİFƏLƏRİ

Nəhayət, otuz iki ildən sonra soydaşımız, Türkiyənin və türk dünyasının ilk qadın vəkili, qadın haqları uğrunda yorulmaz mübariz Süreyya Ağaoğlunun (1903–1989) “Bir ömür böyle geçti. Sessiz gemini beklerken” adlı xatirələr kitabının Azərbaycan türkcəsinə uyğunlaşdırılması işini başa vurdum. Yəqin, bu sözləri oxuyan hər kəs təəccüblənəcək ki, həcmcə çox da böyük olmayan bir kitabın hamımıza doğma və anlaşıqlı olan Anadolu türkcəsindən çevrilməsi üçün, doğrudanmı, onilliklərlə sürən belə uzun zamana ehtiyac vardı?

Bu hadisənin öz tarixçəsi var.

1988-ci ildə o zaman Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda çalışan Nigar xanım Axundova hələ çoxlarımıza əlçatmaz görünən İstanbuldan qayıtmışdı. Özü ilə bir xeyli maraqlı kitablar, o cümlədən haqqında heç nə eşitmədiyimiz Süreyya Ağaoğlunun memuarlarını gətirmişdi. İşin maraqlı tərəfi isə Ağaoğlu ailəsi ilə yaxın qohumluq əlaqələri üzərindən sirr pərdəsini götürməsi olmuşdu.

Həmin dövrdə “Ağaoğlu – Ağayev” soyadı artıq Azərbaycanın akademik mühitinə yad deyildi. Görkəmli ədəbiyyatşünas alim Əziz Mirəhmədovun 1984-cü ildə

çap olunan “Əhməd bəy Ağayev” məqaləsi bəzi ideoloji ştamplara baxmayaraq, elmi-tarixi yanaşma nöqteyi-nəzərindən ilk təşəbbüs kimi dəyərli idi. Polyak əsilli amerikan alimi T.Sventixovskinin “Rusiya Azərbaycanı 1905–1920. İslam icmasında milli eyniyyətin formalaşması”[1] kitabında Əhməd bəyin XX əsrin əvvəllərində Azərbaycandakı ictimai-siyasi fəaliyyəti haqda deyilənlər böyük maraq doğurmuşdu. Əslində, Ə.Ağaoğlu irsinə və şəxsiyyətinə marağım da bu iki əsərdən başlamışdı. Akademik Kamal Talıbzadənin çapa hazırladığı “Azərbaycan ədəbi tənqidinin antologiyası” məcmuəsi üçün Ə.Ağayevin “Kaspi” qəzetində dərc edilmiş bir neçə ədəbi-tənqidi məqaləsini dilimizə çevirmişdim. Lakin müəyyən məlumatlara rəğmən Sürəyya Ağaoğlu və bütünlükdə bu ailənin son 70–80 ildə Türkiyənin ədəbi-mədəni və ictimai-siyasi həyatında oynadığı mühüm rol haqda bildiklərim o qədər də çox deyildi.

Bu mənada Nigar xanımın Türkiyədən gətirdiyi və böyük lütfkarlıq göstərərək oxumaq üçün mənə verdiyi “Bir ömür böyle geçti” kitabı ilk tanışlıqdan nəzərimdə kiçik bir Ağaoğlu ensiklopediyasına çevrildi. Az sonra kitabdan bəzi hissələri dilimizə uyğunlaşdırıb AMEA-nın o dövrdə yetərincə oxunaqlı sayılan “Elm” qəzetində dərc etdirdim.

Sürəyya xanımın xatirələrinin “Ailəm və təhsil illərim”, “Peşə həyatım və sosial fəaliyyətim” fəsillərini isə müvafiq müqəddimə, izah və şərhlərlə birlikdə

---

[1] Tadeuszy Swietochowski. Russian Azerbaijan, 1905–1920: The Shaping of a National Identity in a Muslim Community. Kembrighe University Press, 1985

1997-ci ildə çapdan çıxan "Ağaoğlular" adlı kitabıma daxil etmişdim. Kitabda sırf elmi araşdırmalarla bir sırada Əhməd bəyin, oğlu Səməd Ağaoğlunun və qızı Süreyya Ağaoğlunun əsərlərindən nümunələr yer almışdı.

Aradan keçən illər ərzində ata və oğul Ağaoğlularla bağlı (tədqiqat, təhlil və əsərlərindən nümunələr) səkkiz kitab, onlarla məqalə hazırlayıb çap etdirsəm də, nədənsə (bəlkə də sırf hüquq sahəsində çalışdığına görə!) Süreyya xanımın şəxsiyyəti və yaradıcılığı diqqətimi o qədər də cəlb etməmişdi.

Bir neçə ay əvvəl Ağaoğlu ailəsinin qohumu, Rusiyadakı Azərbaycan Səfirliyinin Mədəniyyət məsələləri üzrə attaşesi, uzun illərdən bəri tanıdığım Nigar xanım Axundova zəng vurub "Bir ömür belə keçdi" kitabını Azərbaycan türkcəsi ilə nəşr etdirmək niyyətində olduğunu bildirdi.

Nigar xanım görkəmli dövlət xadimi, 1959–1969-cu illərdə Azərbaycana rəhbərlik etmiş Vəli Axundovun qızı, ana tərəfdən isə Əhməd Ağaoğlunun böyük qardaşı Hüseyn bəy Ağayevin (1868–1937) nəvəsidir. Süreyya xanımın tarixi vətənində tanıdılmasında, Bakıya ilk (həm də son!) səfərinin təşkilində, qohumlarla görüşdürülməsində Nigar Axundovanın zəhməti az olmayıb.

Babası Hüseyn bəy qardaşından fərqli olaraq ictimai-siyasi proseslərə o qədər də maraq göstərməmişdi. Bolşeviklərin elan etdikləri qısamüddətli "yeni iqtisadi siyasət" dövründə bacarıqlı və təşəbbüskar iş adamı olduğunu ortaya qoymuşdu. Bakıda öz "hoteli" – karvansarası vardı. Minlərlə soydaşı kimi Hüseyn bəy də çox güman, "böyük terrordan" xilas ola bilməmişdi. 1920-ci

illərin ortalarında ÇK tərəfindən "şübhəli əlaqələrinə" görə tutulub bir müddət həbsdə saxlanması da bunu söyləməyə əsas verir.

Nigar xanım vaxtı ilə əsərdən bəzi hissələrini Azərbaycan türkcəsinə uyğunlaşdırmağımdan xəbərdar olduğu üçün "tərcümənin" vəziyyəti ilə maraqlandı. Nəslin gənc nümayəndəsinin – qızı Saranın Sürəyya Ağaoğlunun xatirələrini çap etdirməkdə israrlı olduğunu dedi. Görünür, qəfil zəng özünəməxsus stimula çevrildi və otuz iki il əvvəl başladığım işi sona çatdırmağa həvəs yaratdı. Xatirələrin qalan hissəsini də dilimizə uyğunlaşdırdım. Nəticədə oxuculara təqdim olunan kitab meydana çıxdı.

Sürəyya xanımın xatirələri təkcə özünün, mənsub olduğu Ağaoğlu ailəsinin deyil, bütövlükdə yeni Türkiyənin, ilk növbədə isə türk qadınının XX yüzillikdə keçdiyi böyük və mürəkkəb inkişaf yolunu əks etdirir. Bu çətin, mürəkkəb yolun ilk bələdçilərindən və yolçularından birinin soydaşımız olması, ilk vəkil qadın kimi çağdaş Türkiyə tarixinə öz möhürünü vurması, şübhəsiz, hər bir azərbaycanlı üçün qürur mənbəyidir.

Sürəyya Ağaoğlu 1903-cü ildə Qarabağda, Şuşada dövrünün tanınmış ziyalısı, ictimai-siyasi xadimi Əhməd bəy Ağayevin (Ağaoğlu) ailəsində dünyaya göz açmışdı. Gənc Türklər inqilabının qələbəsindən sonra atasının İstanbula mühacirəti nəticəsində 1910-cu ildən sonra həyatının səksən il davam edən zəngin və maraqlı Türkiyə dövrü başlanmışdı.

Ailənin ilk övladı olan Sürəyyanın yeniyetməlik və ilk gənclik illəri türk tarixinin mürəkkəb, dramatik dövrünə təsadüf etmişdi. O, təhsilini düşmən işğalı altındakı İs-